# Azərbaycan ədliyyəsi müasir inkişaf mərhələsində

**Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan ədliyyəsi yarandığı gündə—1918-ci ilin mayın 28-də Ədliyyə Nazirliyi təsis olunmuş, noyabrın 22-də isə ilk Əsasnaməsi təsdiq edilmişdir.**

Ümummilli lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli Sərəncamı ilə həmin tarix - 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü elan olunmuşdur. Artıq bir əsrdən çox tarixi olan Azərbaycan ədliyyəsi bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə mütərəqqi hüquq, o cümlədən məhkəmə-hüquq islahatlarının aparılması yolu ilə müasir inkişaf mərhələsinə yüksəlmiş, özünün yeni yüzilliyinə qədəm qoymuşdur.

Ədliyyə tarixinin əlli illik dövrü dahi öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. 1969-cu ildə ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişindən sonra bütün sahələrdə olduğu kimi, ədliyyə sahəsində də ciddi dönüş yaranmış, Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərməyə başlamışdır. Eyni zamanda, 1981-ci ildə "Azərbaycan SSR məhkəmə quruluşu haqqında" yeni Qanunun qəbul olunması məhkəmə sisteminin fəaliyyətinin təkmilləşdirilməsində mühüm rol oynamışdır.

1991-ci ildə ölkəmiz müstəqilliyini bərpa etdikdən və ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bütün sahələrdə hərtərəfli köklü islahatlara başlanılmış, 1995-ci ildə ilk milli Konstitusiyamız qəbul olunmuş, demokratik hüquqi dövlət qurulmuşdur.

Hüquqi dövlətin bərqərar olması müstəqil məhkəmə hakimiyyəti olmadan mümkün deyil. Konstitusiyanın qəbulu ilə məhkəmə hakimiyyəti dövlət hakimiyyətinin müstəqil qolunun bütün atributlarını, o cümlədən hüquqi dövlətin prinsip və vəzifələrinə uyğun olaraq qanunverici və icra hakimiyyəti ilə eyni statusu əldə etmiş, müstəqil məhkəmə hakimiyyətinin bərqərar olması üçün genişmiqyaslı islahatlar həyata keçirilmişdir.

Dahi öndərin rəhbərliyi ilə aparılmış bu islahatlar nəticəsində keçmiş sovet məhkəmə sistemi ləğv edilərək 2000-ci ildən yeni, üçpilləli müstəqil məhkəmə sistemi yaradılmışdır. Bununla da hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə, həmçinin məhkəmə qərarlarından şikayət vermək hüququna təminat verilmiş, işlərə birinci instansiya qaydasında baxılması, bundan sonra onların hüquqa və fakta görə apelyasiya qaydasında yoxlanılması, daha sonra isə məhkəmə qərarlarına hüquqa görə kassasiya qaydasında yenidən baxılması təsbit edilmişdir.

Bu, həm də birinci instansiya məhkəməsinin buraxdığı səhvlərin yuxarı məhkəmə instansiyalarında aradan qaldırılmasına, işlərin mahiyyətcə və prosessual baxımdan düzgün və obyektiv həll edilməsinə zəmin yaratmışdır.

Hər bir demokratik cəmiyyətdə müstəsna əhəmiyyət kəsb edən məhkəmə-hüquq sisteminin islahatı ölkəmizdə sonrakı dövrlərdə də Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilmişdir.

"Ölkəmizin hərtərəfli inkişafı, demokratik, hüquqi dövlətin əsaslarının möhkəmlənməsi üçün məhkəmə-hüquq sisteminin təkmilləşməsi başlıca şərtdir", - deyən dövlətimizin başçısı ölkədə müstəqil və şəffaf məhkəmə sisteminin yaradılmasına və beynəlxalq standartlara uyğunlaşdırılmasına xüsusi önəm vermiş, bu məqsədlə ötən dövrdə aparılan islahatlar nəticəsində məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanları - Məhkəmə-Hüquq Şurası, Hakimlər Seçki Komitəsi yaradılmış, yeni məhkəmələr təsis edilmiş, məhkəmə infrastrukturunun müasirləşdirilməsi, innovativ texnologiyaların geniş tətbiqi üzrə ardıcıl tədbirlər həyata keçirilmişdir.

Bu islahatlar, ilk növbədə vətəndaşların məhkəmələrə müraciət imkanlarının genişləndirilməsinə, ədalət mühakiməsinin əlçatanlığının təmin olunmasına, işlərə daha effektiv və keyfiyyətlə baxılmasına, şəffaflığın artırılmasına xidmət etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məhkəmə sisteminin müasirləşdirilməsi ilə bağlı 2006-cı ildə imzaladığı fərmanlar məhkəmə fəaliyyətinin təkmilləşdirilməsində yeni mərhələ olmuşdur.

Vətəndaşların məhkəmələrə müraciət etmək imkanlarının asanlaşdırılması, habelə regionlarda hüquq institutlarının inkişafı məqsədilə yeni məhkəmələr, o cümlədən Bakı şəhərində yerləşən respublika Apelyasiya və İqtisad məhkəmələri ləğv edilərək ölkənin bütün bölgələrini əhatə edən yeni regional apelyasiya, inzibati-iqtisadi məhkəmələr təsis olunaraq fəaliyyətə başlamışdır.

Həmçinin, hakim korpusunun komplektləşdirilməsi məqsədilə namizədlərin maksimal şəffaf seçim proseduru təsbit olunmuş, bu məqsədlə Hakimlərin Seçki Komitəsi tərəfindən çoxmərhələli prosedurlarla hakimlərin seçimi prosesi aparılmış, hazırlıqlı və yüksək mənəvi keyfiyyətlərə malik hüquqşünaslar seçilərək müxtəlif hakim vəzifələrinə layiq bilinmişlər. Təsadüfi deyil ki, hakimlərin ən şəffaf seçimində Azərbaycanın təcrübəsi artıq Avropa Şurası və Avropa İttifaqı tərəfindən örnək kimi dəyərləndirilərək digər dövlətlərə ondan bəhrələnmək tövsiyə olunur.

Ədliyyə və məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlər ötən dövrdə Azərbaycan ədliyyəsinin inkişafına dair qəbul olunmuş Dövlət proqramları çərçivəsində uğurla davam etdirilmiş, 2018-ci ilin dekabrında təsdiq olunmuş 2019-2023-cü illər üzrə yeni Dövlət Proqramı qarşıda yeni hədəfləri, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsini, infrastrukturun, maddi-texniki bazanın möhkəmləndirilməsini, müasir texnologiyaların tətbiqinin genişləndirilməsini və digər mühüm vəzifələri müəyyən etmişdir.

Ötən ilin sonunda dövlət başçısının qanunvericilik təşəbbüsü ilə Mülki-Prosessual Məcəllədə və "Məhkəmələr və hakimlər haqqında" Qanunda edilmiş əsaslı dəyişikliklər məhkəmə fəaliyyətinin təkmilləşdirilməsinə, işin səmərəliliyinin və keyfiyyətinin artırılmasına, iş yükünün azaldılmasına, "elektron məhkəmə" sisteminin tətbiqinin genişləndirilməsinə, həmçinin məhkəmələrdə şəffaflığın və aşkarlığın artırılmasına, işlərə daha operativ baxılmasına, vətəndaşların hüquqlarının təmin olunmasına xidmət etmişdir.

Yeni qanunvericilikdən irəli gələn vəzifələr, o cümlədən qanunvericiliyin yeni müddəalarının dürüst və vaxtında icrasının təmin olunması, onların mahiyyətinin dərindən öyrənilməsi və e-məhkəmənin imkanlarından səmərəli istifadə olunmaqla düzgün tətbiqi ilə bağlı paytaxtda və respublikanın bütün bölgələrində təlimlər və hüquqi maarifləndirmə tədbirləri keçirilmişdir. Qanunvericilikdəki yeniliklər barədə həmçinin, Bakı Apelyasiya Məhkəməsində onun yurisdiksiyasına aid məhkəmələrin hakimlərinin və aparat işçilərinin iştirakı ilə tədbir keçirilmiş, təcrübədə tətbiqi ilə bağlı ətraflı müzakirələr aparılmışdır. Qeyd olunmalıdır ki, həmin qanunvericiliyə əlavə olunan "Mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının elektron qaydada aparılması"na dair 10-1-ci maddə ilə elektron məhkəmə sisteminin işləməsi ilə vətəndaşların məhkəməyə gəlmədən, elektron formada müraciət edərək, proses barədə məlumatı elektron qaydada dərhal əldə etməsi, məhkəmə proseslərinin audio-video vasitələrlə qeydə alınması, habelə prosesi onlayn rejimdə müşahidə etmək imkanının yaranması ilə proses iştirakçıların məhkəmənin gedişi, qərarlar və onların icra vəziyyətini əks etdirən elektron "şəxsi kabinet"lə təmin olunmaları imperativ xarakter almışdır. Həmçinin məhkəmə iclası barədə bildirişlər iş təyin olunan anda hakimin elektron imzası ilə təsdiq olunur və dərhal tərəflərin e-mail ünvanlarına və ya mobil telefonlarına SMS formasında göndərilir.

Eyni zamanda Qanuna edilən yeni dəyişikliklə məhkəmələrdə təyin edilən işlərin siyahısı və yekun məhkəmə aktları bazasının formalaşdırılaraq portalda yerləşdirilməsi, məhkəmə rüsumlarının elektron qaydada ödənilməsi müəyyən edilmişdir ki, bu da öz növbəsində məhkəmələrdə süründürməçilik və digər pozuntuların azalmasına, işlərə daha keyfiyyətlə baxılmasına şərait yaratmışdır.

Qanunla Mülki-Prosessual Məcəlləyə "Kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat"a dair 23-1-ci fəslin əlavə edilməsi də məhkəmələrdə işlərə baxılmasının daha keyfiyyətli olmasına, vətəndaşların gözlədikləri məhkəmə qərarlarını daha tez əldə etmələrinə, özbaşınalığın və süründürməçiliyin qarşısının alınmasına xidmət etmişdir.

2019-cu il məhkəmə-hüquq sistemi üçün xüsusilə önəmli olmuş, bu sahədə islahatlar dərinləşmişdir. Çıxışlarında dəfələrlə "islahatlara alternativ yoxdur" fikrini vurğulayan dövlətimizin başçısı tərəfindən cari il aprelin 3-də imzalanmış "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı ədliyyə və məhkəmə sistemi üçün mühüm "yol xəritəsi" olmuşdur.

Fərmanda müasir çağırışlara uyğun olaraq məhkəmə fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi, o cümlədən sahibkarlıqla bağlı mübahisələrin həllinin tezləşdirilməsi, vahid məhkəmə təcrübəsinin formalaşdırılması, hakimlərin sosial müdafiəsinin və maddi-texniki təminatının gücləndirilməsi və digər mühüm məsələlərlə bağlı yeni qanun layihələrinin hazırlanması bu sahədə fəaliyyətin təkmilləşdirilməsinə, bütövlükdə məhkəmə hakimiyyətinin müstəqilliyinə xidmət etmişdir.

Eyni zamanda, yeni ixtisaslaşmış məhkəmələrin - kommersiya və inzibati məhkəmələrin yaradılması, ali və apelyasiya məhkəmələrində müvafiq kollegiyaların təsis olunması, məhkəmə aidiyyəti üzrə mübahisələrin həllinin daha təkmil, yeni mexanizminin yaradılması mühüm institusional tədbirlərdəndir.

Bununla yanaşı, Fərmana uyğun olaraq mübahisələrin məhkəmədənkənar həlli mexanizmlərinin genişləndirilməsi, o cümlədən mediasiya institutunun, beynəlxalq arbitraj prosedurlarının təşviqi, məhkəmə qərarlarının icrası və ekspertiza fəaliyyətinin alternativ mexanizmlərinin yaradılması, habelə müvafiq olaraq özəl icra və özəl ekspertiza institutlarının tətbiqi istiqamətində də mühüm addımlar atılmaqdadır.

Bütün bunlar insanların hüquqlarının məhkəmə müdafiəsinin etibarlı təminatına, məhkəmə hakimiyyətinə ictimai etimadın artırılmasına xidmət edir.

Vətəndaşların məhkəmə sisteminin fəaliyyəti barədə məlumatlılığının təmin olunması da daim diqqətdə saxlanılır. Bu məqsədlə mütəmadi maarifləndirici tədbirlərin keçirilməsi xüsusilə əhəmiyyətlidir. Təsadüfi deyil ki, Avropa Şurasının üzvü olan ölkəmizdə hər il "Avropa Ədliyyə Günü" münasibətilə məhkəmələrdə "açıq qapı" günləri elan olunaraq vətəndaşların ədalət mühakiməsinin həyata keçirilməsi sistemi, məhkəmə fəaliyyəti ilə yaxından tanışlıq tədbirləri təşkil olunur.

Bununla bağlı Bakı Apelyasiya Məhkəməsində ötən ay vətəndaşlar, o cümlədən gənclər üçün məhkəmə fəaliyyəti ilə bağlı islahatlara və beynəlxalq təcrübələrə dair müxtəlif aktual mövzularda maarifləndirici tədbir keçirilmiş, Apelyasiya Məhkəməsinin fəaliyyəti ilə tanış olunmuşdur.

Bütün bunlar bir daha təsdiqləyir ki, təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə ardıcıl və sistemli olaraq həyata keçirilən mütərəqqi məhkəmə-hüquq islahatları ölkədə qanun aliliyinin, insan hüquq və azadlıqlarının etibarlı təminatına xidmət edir. Ölkənin artan iqtisadi imkanları bu sahədə islahatların bundan sonra da uğurla davam etdiriləcəyinə qəti əminlik yaradır.

**Fuad BABAYEV,**
**Bakı Apelyasiya Məhkəməsinin hakimi,**
**Hüquq üzrə fəlsəfə doktoru.**